## *TƏRBİYƏ TEXNOLOGİYALARI*
## *ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ*
## *UPBRINGING TECHNOLOGIES*

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*

# AUDİTORİYADANKƏNAR TƏDBİRLƏR ZAMANI TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике,*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ СТУДЕНТОВ ВО ВНЕАУДИТОРЫХ МЕРОПРИЯТИЯХ

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy*
*leading specialist at the Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF STUDENTS' ACTIVE LIFE POSITION IN EXTRA-AUDITORY ACTIVITIES

**Xülasə**. Fəal həyat mövqeyinin tərbiyə olunması prosesi mexaniki proses deyildir. Bu, müəllimin təşkilatçılıq fəaliyyətinin və liderlik keyfiyyətlərinin mühüm cəhətlərindəndir. Hazırda enerjili, ünsiyyətcil, yaxşı nitqə, təşkilatçılıq bacarıqlarına, müstəqilliyə və təşəbbüskarlığa malik mütəxəssislərə tələbat böyükdür. Auditoriyadankənar iş ali təhsil müəssisəsinin fəaliyyətinin əhəmiyyətli elementidir. Auditoriyadankənar tədbirlər təlim prosesində başlayan prosesi davam etdirir və dərinləşdirir, həm də asudə vaxtın maraqlı və maarifləndirici keçməsini imkan verir.
***Açar sözlər***: *auditoriyadankənar, auditoriyadankənar iş, tələbələr, fəal, mövqe, fəal mövqe, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması*

**Резюме**. Процесс выработки активной жизненной позиции не является механическим процессом. Это один из важных аспектов организаторской деятельности и лидерских качеств учителя. В настоящее время существует большой спрос на специалистов, обладающих энергией, коммуникабельностью, хорошими коммуникативными способностями, организаторскими способностями, самостоятельностью и инициативой. Внеаудиторная работа является важным элементом деятельности вуза. Мероприятия вне зрительного зала продолжают и углубляют начатое в учебном процессе, а также позволяют интересно и познавательно провести досуг.
***Ключевые слова***: *внеаудиторная, внеаудиторная работа, студенты, активист, позиция, активная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции.*

**Summary.** The process of developing an active life position is not a mechanical process. This is one of the important aspects of a teacher's organizational activities and leadership qualities. Currently, there is a great demand for specialists with energy, sociability, good communication skills, organizational skills, independence and initiative. Extracurricular activities are an important element of the university's activities. Activities outside the auditorium continue and deepen what has been started in the educational process, and also allow you to spend your leisure time in an interesting and informative way.
***Key words***: *extracurricular work, extracurricular work, students, activist, position, active position, active life position, formation of an active life position*

Şəxsiyyətin (bizim tədqiqatda tələbələrin) fəal həyat mövqeyinin formalaşdırılması pedaqogika və psixologiya elmlərinin mühüm problemlərindən biridir. Tələbələrə verilən başlıca tələblər bunlardır: fəallıq və proqram materialını tez öyrənmək istəyi. Hazırda enerjili, ünsiyyətcil, yaxşı nitqə, təşkilatçılıq bacarıqlarına, müstəqilliyə və təşəbbüskarlığa malik mütəxəssislərə tələbat böyükdür. Müxtəlif səviyyələrdə təhsil bu günün özündə də subyektyönlüdür və həm də qnoseoloji (bilik) yanaşmanı nəzərdə tutur. Tələbə zəruri biliklər məcmusunu müəllimdən alır. Bu vəziyyətdə müəllim və şagirdin rol mövqeləri aydın görünür.

Sübuta yetirilib ki, fəal həyat mövqeyinin tərbiyə olunması prosesi mexaniki proses deyildir. Bu, müəllimin təşkilatçılıq fəaliyyətinin və liderlik keyfiyyətlərinin aspektlərindəndir.

Tələbə gənclər təlim prosesinin planlaşdırılmasına yaxından qoşulurlar. Onların mənəvi və maddi baxımdan rəğbətləndirilməsindən örtü təkliflər irəli sürülür, təhsilalanların ictimai rəyinin öyrənilməsi və nəzərə alınması sistemi formalaşdırılır. Bunun üçün şərait yaradılır. Tələbələrin hər biri problemlərin müzakirəsində, ali təhsil müəssisəsinin, pedaqoji fakültənin həyatı üçün zəruri qərarların qəbulunda və işlənib hazırlanmasında iştirak edir.

Auditoriyadankənar iş təlim prosesi (mühazirə və seminar məşğələləri) ilə müqayisədə sərbəst şəkildə aparılır ki, burada tələbə öz yaradıcı bacarıqlarını və yaradıcı təfəkkürünü inkişaf etdirə və kollektivdə fəaliyyət göstərmə qabiliyyətlərini nümayiş etdirə bilər.

Auditoriyadankənar iş ali təhsil müəssisəsinin fəaliyyətinin əhəmiyyətli elementidir. Mühazirə və seminar məşğələlərinin davamlılığı məhduddur. Auditoriyadankənar tədbirlər təlim prosesində başlayan prosesi davam etdirir və dərinləşdirir, həm də asudə vaxtın maraqlı və maarifləndirici keçməsini imkan verir.

Auditoriyadankənar iş həmişə tələbələrin yaradıcılıq qabiliyyətlərinin və fərdi inkişafına öz köməyini göstərir.

Mühazirə və seminar məşğələlərində tələbələr öz yaradıcılıq və intellektual imkanlarını lazımi şəkildə meydana çıxara bilmirlər. Hər bir auditoriyadankənar tədbirin başlıca məqsədi gənclərin ixisasa yiyələnmələri, mənəvi və idraki keyfiyyətlərinin inkişaf etdirilməsidir. Auditoriyadankənar tədbirlərin tələbələrdə dünyaya, şəxsiyyətlərinə qarşı önəmli dəyər və münasibət sistemini yaratmağa kömək göstərir; təhsilalanları milli və ictimai mədəniyyət və adət-ənənələrlə tanış olmasına şərait yaradır.

Dərsdənkənar fəaliyyətin funksiyaları aşağıdakılardan ibarətdir:

• təhsilləndirici;
• tinkişafetdirici;
• tərbiyələndirici.

Təhsilləndirici funksiyası təhsillənməyə yardımçı olur, fəal həyat mövqeyinin mahiyyətinə, məqsəd və vəzifələrinə, həyata keçirilməsi və reallaşması məsələlərinə yiyələnməyə öz köməyini göstərir, sosial bacarıqlara sahib olmağa yönəlib.

Tərbiyəedici və inkişafedici funksiyalar əxlaqi mədəniyyətin, mənəvi ideallarn formalaşdırılmasından, tələbələrin hər birinin fərdi (yaradıcı, intellektual, emosional və psixoloji) keyfiyyətlərinin müəyyən və inkişaf etdirilməsindən ibarətdir.

Auditoriyadankənar işin formaları bir sıra cəhətdən ali məktəb müəlliminin, tərbiyə işləri üzrə prorektorun qarşısında duran vəzifələrdən, həmçinin tələbələrin yaşından xeyli dərəcədə asılıdır. Aşağıdakı iş formaları genim yayılmışdır:

• ***Müzakirələr*** – hər hansı bir mövzunun və ya problemli məsələnin müzakirəsinə həsr olunur. Müzakirələr tələbə oğlanlarda və qızlarda öz fikirlərini bildirmək və müdafiə etmək bacarığı formalaşdırır. Bunlara debatlar, dəyirmi masalar, mühazirələrdən sonra təşkil olunan müzakirələr nümunədir.

• ***Yarışla***r. Rəqabətli tədbirlər tələbələrə fərdi qabiliyyətlərini göstərməyə, ünsiyyət bacarıqlarının və güclü iradəli keyfiyyətləri (viktorinalar, şou müsabiqələri, KVN) inkişafına şərait yaradır.

• ***Yaradıcı tədbirlər***. Onlar yaradıcı meylləri müəyyən və inkişaf etdirməyə, estetik zövqü formalaşdırmağa imkan verir. Auditoriyadankənar tədbiri təşkil edən şəxs tələbələri tələbə elmi konfransı, disput, festival, bayram, sərgi, tamaşa, konsert təşkil etməyə dəvət edə bilər.

• ***Oyunlar*** - həyat vəziyyətlərini yenidən diqqət mərkəzinə gətirir, başqa şəxslərlə ünsiyyət bacarıqlarının inkişafına, sosiallaşmaya kömək edir, təcrid maneəsinin kənarlaşdırılmasına şərait yaradır. Bu, həm rol oyunu, həm tarixi

epizodun səhnələşdirilməsi, eləcə də ədəbi əsərdən bir səhnə, teatra, filarmoniyaya gediş, muzeyə ekskursiya da ola bilər.

Hər bir tədbirdə olduğu kimi, auditoriyadankənar fəaliyyət də müəyyən mərhələləri özündə birləşdirir. Hər bir tədbir müəyyən bir prosesdir, ona hazırlıq, onun təşkili, faktiki icrası və təhlili daxildir.

***Hazırlıq mərhələsində*** auditoriyadankənar tədbirin təşkilatçısı ali məktəbin müəyyən bir tələbə qrupu və gənclərin hər birindən ötrü hansı mövzunun və təhsil yönümünün nisbətən maraqlı olacağını müəyyənləşdirir. Bu məqsədlə tələbə oğlan və qızlar, onların valideynləri arasında sorğu keçirmək mümkündür. Müəllim mövzunu seçdikdən sonra tələbələrlə tədbirin məqsəd və vəzifələrinə aydınlıq gətirir, onun formasını, zəruri material və avadanlıqları müəyyənləşdirir, plan tutur. Tələbələrin planlaşdırma və təşkilatlanmada iştirakı da təhsil fəaliyyətinin üzvi hissəsidir.

***Təşkilatlanma.*** Tədbir iştirakçıları arasında rol və məsuliyyət bölgüsü mövcuddur. Tələbələrin əksəriyyətinin bu və ya digər fəaliyyətə qoşulması lazımdır. Lazım gəldikdə tədbirin gedişi, onun strukturu və vaxt çərçivəsi tənzimlənir.

**Təhlil**. Auditoriyadankənar başa çatdıqdan sonra tələbələr müəllimin köməyi ilə onu ümumiləşdirir, təhlillər aparır və qiymətləndirirlər. Həmin vasitə ilə əldə olunan təcrübə konsolidasiya edilir. Tələbələr auditoriyadankənar işlərin müsbət və mənfi cəhətlərini diqqət mərkəzinə gətirərək, təhlil etməyi və tənqidi düşünməyi öyrənirlər. Forma və icranın qarşıda dayanan məqsəd və vəzifələrə uyğun gəlib-gəlmədiyi, arzu olunan nəticəyə nail olunub-olunmadığı, buna səbəbin nə olduğu açıqlanmalıdır.

Təhlil özünü təkmilləşdirməyə imkan verir və hər bir şəxsi, o cümlədən müəllimləri gələcək inkişafa istiqamətləndirir.

Bu tipli kollektiv müzakirədən sonra tələbə gənclərin öz fikir və mülahizələrini daha ətraflı bildirəcəyi, mənfi və müsbət məqamları yaza biləcəyi sorğu aparıla bilər. Bundan sonrakı tədbirlərin təşkili və keçirilməsinin təkmilləşdirilməsi məqsədilə təkliflər nəzərdən keçirilir.

Auditoriyadankənar iş müəllimin fəaliyyətinin çox zəruri hissəsidir. Həmin məşğələlərin keçirilməsi istənilən vaxt, hər hansı yaşda olan tələbələrə tərbiyəvi təsir edir. Sinifdənkənar iş tələbə qrupundakı mühazirə və seminar məşğələləri və ya tədbirlərdir ki, onlar bilavasitə müəllim və ya təhsil müəssisəsinin özü və ya tələbələr tərəfindən təşkil edilməli və tərbiyəvi xarakterə malik olmalıdır.

Müsabiqələrdə, elmi-praktik konfranslarda, olimpiadalarda, viktorinalarda, fənn həftələrində, tamaşalarda, konsertlərdə tələbələrin fəal iştirakı auditoriyadankənar fəaliyyətə marağın ifadəsidir.

Fəal həyat mövqeyinin əsasında fərdin dünyagörüşü dayanır, başlıca struktur komponentləri isə sabit, zəngin biliklər, şəxsiyyətin münasibətləri, inamlar, sosial və şəxsi dəyərli xüsusiyyətləri, cəmiyyətin mənafeyinə istiqamətlənən fəaliyyətə hazırolma və yüksək emosional təmkin dayanır.

Fəal həyat mövqeyinin təzahürünün göstəriciləri bunlardır:

-şəxsin zəruri hədəfləri seçməsi, planlaşdırma və onlara nail olmaq bacarığı;

-həyat tərzinə və şəraitinə uyğun gələn müxtəlif fəaliyyətlərdə onun cavabdehliyi, məsuliyyəti və fəal mövqeyi.

Tədbirlər zamanı tələbələrin fizioloji və psixoloji xüsusiyyətləri diqqət mərkəzində dayanır. Stressi və yorğunluğu aradan qaldıran, fəaliyyət və istirahət üçün rahat şəraitə imkan verən iş növləri müəyyənləşdirilir. Auditoriyadankənar tədbirlərin müvafiq formaları tələbələrdə fəal həyat mövqeyi qazanmağa böyük maraq yaratmağa, ümumi mədəniyyət və bacarıqları təkmilləşdirməyə, bilikləri dərinləşdirməyə yardımçı olur.

***Auditoriyadankənar işin təhsil və tərbiyəvi nəticələri*** 3 səviyyəyə bölünür:

***Nəticələrin 1-ci səviyyəsi*** - tələbə şəxsiyyətlərarası qarşılıqlı əlaqənin vəziyyətinə və strukturuna bələd olur; o, özünütanıma üsullarına sahiblənir, müsahibini anlamağa kömək göstərən sosial biliklər qazanır.

***Nəticələrin 2-ci səviyyəsi*** - təcrübə və cəmiyyətin başlıca dəyərlərinə (Vətən, insanlar, ailə) müsbət yanaşmaq.

***Nəticələrin 3-cü səviyyəsi*** - müstəqil sosial fəaliyyət təcrübəsinə yiyələnmək, öz inkişaflarını tələbə yoldaşlarına və müəllimlərə təqdim etmək bacarığına sahib olmaq (video layihə).

Auditoriyadankənar işin ən çox yayılmış növləri bunlardır: fərdi, qrup halında və kollektiv.

Fərdi növ ayrı-ayrı (tək-tək) tələbələrin öz-özünə təhsillənməyə və tərbiyəlnməyə istiqamətlənmiş müstəqil fəaliyyətidir. Haqqında danışılan növ, tələbələrin hər birinə ümumi işdə öz yerini tapmağa kömək göstərir. Bu fəaliyyət müəllimdən tələbələrin fərdi xüsusiyyətlərini bilməsini tələbata çevirir.

İqtisadi inkişafımızın hazırki mərhələsində işəgötürənlər, hər şeydən əvvəl mütəxəssisin fəal həyat mövqeyli olmasın arzulayır, çünki o, iqtisadiyyatın və cəmiyyətin inkişafını təmin edən yeni ideyaların, qeyri-adi yanaşmaların, cəsarətli addımların və qərarların təminatçısıdır. Odur ki, gələcək mütəxəssisin peşəkar və sosial uğurunun ən mühüm amillərindən biri onun fəal həyat mövqeyi hesab edilir.

Auditoriyadankənar dərnək işi bu və ya digər elm sahəsinə, tətbiqi yaradıcılığa, incəsənətə və ya idmana maraq və yaradıcılıq qabiliyyətlərini müəyyənləşdirməyə şərait yaradır. Dərnəklərdə bir sıra məşğələlər (bədii əsərlərin müzakirəsi, ekskursiyalar, laboratoriya və sənətkarlıq məşğələləri və s.) həyata keçirilir: Dərnəyin il ərzində gördüyü işlərin hesabatı tələbə yaradıcılığı sərgisi, baxışı və ya festivalı şəklində reallaşır və s.

Kollektiv iş formaları ali məktəbdə nisbətən çox yayılıb.

Tamaşalara və ya muzeylərə gedişlər, adlı-sanlı şəxslərlə tanış olmaq kimi fəaliyyətlərdə tələbə gənclər tamaşaçı olurlar.

Mövcud ədəbiyyatda tələbələrin aktiv həyat mövqeyinin psixoloji və pedaqoji komponentləri aşağıdakı şəkildə göstərilir:

- ***şəxsi***: anlayış, digər şəxslərin mövqeyini başa düşmək istəyi;

yoldaşlıq və dostluq, ünsiyyətcillik;

lider olmaq bacarığı; nəzakət və mərifət;

sağlam düşüncəli liderlik;

hövsələ, səbir, təmkin və dözümlülük;

cavabdehlik hissi;

təşəbbüskarlıq və təşkilatçılıq bacarığı;

fəaliyyətə həvəs;

müstəqillik, ağlabatan mülahizə və mühakimə yürütmək, gələcəyini planlaşdırmaq, ardıcıllıq;

-yaxşı yaddaş, dəqiqlik, digərlərini öyrətmək bacarığı;

-imkansız, xəstə və şikəst insanlara qulluq göstərmək səyi;

- ***peşəkar***: pedaqogika və psixologiyanın, sosiologiya və fəlsəfənin nəzəri əsaslarından xəbərdar olmaq;

-gələcək pedaqogika müəlliminin, gələcək psixologiya müəlliminin fəaliyyətinə uyğunluq;

-müxtəlif komissiyaların işində fəaliyyət göstərmək, xidməti vəzifələrindən başqa işlərin də yerinə yetirilməsi;

-seminar məşğələlərində, konfranslarda, metodik birləşmələrdə, həmçinin ixtisasartırma kurslarında iştirak;

-peşə keyfiyyətlərə yiyələnmək, öz mövqeyini mərifətlə, nəzakətlə və düzgün bildirmək, ideoloji nöqteyi-nəzərini əsaslandırmaq bacarığı;

- başqa şəxsləri və meydana gələn vəziyyətləri obyektiv qiymətləndirmək bacarığı;

-pedaqoji vəziyyətlərin təhlilini aparmaq, əsas məqsəd və vəzifələri müəyyənləşdirmək bacarığı;

-nəzəri biliklərdən əməli fəaliyyətdə faydalanmaq; peşəkar xarakterli mühüm problemlərin həllində üsul və üsulları seçmək bacarığı;

-peşə fəaliyyəti normalarına və standartlarına bələd olmaq, ustalığa yiyələnmək, öz fəaliyyətini fərdiləşdirmək arzusu, peşə vasitəsi ilə öz şəxsiyyətini şüurlu şəkildə inkişaf etdirməyə cəhd;

-davamlı peşəkar öyrənməyə, dəyişikliklərə və təcrübə toplanmasına cəhd;

-pedaqogika və psixologiyanın müasir problemlərini bilmək.

- ***işin səmərəliliyi və təhsil müəssisəsinin fəaliyyətində müəllim-psixoloqun rolu***:

- psixoloji-pedaqoji təhsil və məsləhət;

-diaqnostika işinin təşkilinin ona verilən tələblərə uyğunluğu. Buraya aiddir: psixodiaqnostik işin nəticələrinə əsaslanan tövsiyələrdən xəbərdar olmaq;

-nəticələrin etibarlılığı, əlçatanlığı və reallığı;

-psixoprofilaktik psixo-korreksiya işinin səmərəliliyi;

- ***təhsil müəssisəsinin həyatına cəlb edilməsi.*** Peşə fəaliyyəti zamanı qarşıda duran məqsəd və vəzifələrin həyata keçirilməsi. Buraya daxildir:

-xarici və daxili əlaqələrin bərqərar olması, ali məktəbin daxilində və xaricində bu və ya digər mütəxəssislə qarşılıqlı əlaqə;

-ali təhsil müəssisəsində fənn-inkişaf mühitinin təşəkkülündə yaxından iştirak;

-tələbələr və təhsil prosesinin başqa iştirakçılarından ötrü ünsiyyət təliminin təşkili; müəllimlər, tələbələrin həmyaşıdları və b. ilə qarşılıqlı münasibətlərində etik davranış və etiket qaydaların yerinə yetirilməsi.

**Problemin aktuallığı**. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması problemi auditoriyadabkənar tədbirlər zamanı reallaşdırılır.

**Problemin yeniliyi**. Diqqət mərkəzinə auditoriyadabkənar tədbirlər zamanı tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm bir problem gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorantlar və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N. Abbasov. -Bakı: Mütərcim, -2015. -360 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: Mütərcim, -2022. -464 s.
3. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. -Bakı: Mütərcim, -2022. – 232 s.


**E-mail**: lale23@mail.ru

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil oldu**: 21.09.2023